# “Vice News” nəşri və “Amnesty İnternational” erməni faşizmini və vandalizmini fakt olaraq təsdiqlədi

*ABŞ-ın “Vice News” nəşri və “Amnesty İnternational” Ermənistanın azərbaycanlılara qarşı qadağan olunmuş kaset bombalardan istifadə etdiyinə dair açıqlama yayıb*

“Amnesty International” təşkilatı Ermənistanın Azərbaycanın Bərdə şəhərinə istifadəsi qadağan olunmuş kasetli raketlərlə zərbələr endirdiyini təsdiqləyib. Təşkilatın bu barədə yaydığı açıqlamada deyilir ki, 28.10.2020-ci il tarixində yerli vaxtla saat 13:30-da Bərdə şəhərinə bir və ya bir neçə “Smerç” raketi atılıb və xəstəxanaya yaxın yaşayış ərazisinə düşüb. Azərbaycanın Baş Prokurorluğu bildirib ki, nəticədə ən azı 21 nəfər həlak olub, 70-dən çox insan yaralanıb.

Qeyd olunur ki, “Amnesty International”ın böhrana cavab mütəxəssisləri şəkillərə əsasən şəhərə erməni qüvvələri tərəfindən atılan raket qalıqlarının Rusiya istehsalı olan 9M55 “Smerç” raketlərindən 9N235 sursat parçalarının olduğunu təsdiqləyiblər.

Vurğulanır ki, kasetli sursatlardan mülki ərazilərə qarşı istifadə etmək amansızlıqdır və məsuliyyətsizlikdir. Bu, çoxsaylı insan itkisinə,



Banned Cluster Munitions Used Against Civilians in Azerbaijan

Exclusive: Widely-banned Russian-made cluster munitions were used during an attack upon residential areas in Barda, Azerbaijan, that killed 21 people.

Widely-banned Russian-made cluster munitions – which appear to have been fired by Armenian forces – have been used against residential areas in the town of Barda, Azerbaijan.

VICE News journalists were able to corroborate the use of cluster munitions in an attack that took place on the 28th of October. In an investigation carried out just hours after the attack, we discovered and examined impacts and remnants of Smerch submunitions, which have been independently verified by Amnesty International's military expert, Brian Castner, former UN military advisor, Marc Garlasco, and Justin Bronk, research fellow at the UK's Royal United Services Institute defence think tank.







yaralanmaya səbəb olur. Kasetli döyüş sursatlarının hər cür şəraitdə istifadəsi beynəlxalq humanitar hüquqa əsasən qadağandır.

ABŞ-ın “VİCE News” nəşri də yaydığı məlumatda qeyd edir ki, Ermənistan silahlı qüvvələri Azərbaycanın Bərdə şəhərinin yaşayış məntəqələrini qadağan edilmiş kasset döyüş sursatları ilə atəşə tutub. Nəşrin jurnalistləri oktyabrın 28-də baş vermiş hücumdan bir neçə saat sonra araşdırma aparıblar və “Smerç” raketindən atılmış döyüş sursatlarının qalıqlarını aşkarlayıblar. “Amnesty International”ın hərbi eksperti Brayan Kastner və Avropa Birliyinin keçmiş hərbi müşaviri Mark Qarlasko təsdiq ediblər ki, döyüş sursatları “Smerç”dən buraxılıb.

Dünya mediasının və beynəlxalq qeyri-hökumət təşkilatlarının Ermənistanın azərbaycanlılara qarşı qadağan olunmuş silahdan istifadə etməsinə dair açıqlamaları işğalçı ölkənin bütün dünya qarşısında vəhşiliyini, insanlıqdan kənar mübarizə apardığını bütün çılpaqlığı ilə ortaya qoyur. Bununla da bütün dünya şahid olur ki, Paşinyan rejimi Ermənistanı dünya ictimaiyyəti qarşısında terrorçu və faşist dövlət kimi təqdim edir.

Faktdır ki, Ermənistan hakimiyyəti son bir ay ərzində bütün beynəlxalq qanunları tapdayaraq həm hərbi cinayət törədir, həm də hərbi əməliyyatlarda beynəlxalq konvensiyalara zidd olaraq uşaqları döyüşlərə cəlb edir. Eyni zamanda, döyüş meydanında işğalçı ölkə beynəlxalq konvensiyalara məhəl qoymayaraq, cəsədlərinə sahib çıxmaq istəmir, Azərbaycan tərəfinin çoxtərəfli təkliflərinə baxmayaraq, onları götürməkdən imtina edir. Bir sözlə, Ermənistan dövləti bütün məsələlərdə insanlıq və əxlaq normalarına zidd mövqe nümayiş etdirir.

Vəhşiliyin və terror aktının törədilməsi, hərbi əməliyyatların getdiyi zonadan uzaqda yerləşən Bərdə şəhərindəki dinc əhalinin qadağan edilmiş raketlərdən iki dəfə bombalanması onu göstərir ki, Ermənistanda hakimiyyəti zəbt etmiş qüvvələr nəinki bütün region, eləcə də sivil dünya üçün real təhlükədir. Bu terror aktları miqyasına və əhatə dairəsinə görə kifayət qədər genişmiqyaslı hücumdur və onlarca uşaq bu terrorun qurbanıdır.

Bəli, bu gün daim Azərbaycana münasibətdə qərəzli münasibət göstərən “Amnesty İnternational” bu dəfə faşizm əməlini görməzdən gələ bilmədi və həqiqətləri demək məcburiyyətində qaldı. Lakin Ermənistanın uşaqlara qarşı bu qədər cinayətlərin törədilməsinə baxmayaraq, dünyada uşaqların müdafiəsi ilə məşğul olan beynəlxalq təşkilatlardan tutarlı bəyanatlara rast gəlinmir. Baxmayaraq ki, Ermənistan uşaqların müdafiəsi ilə bağlı beynəlxalq konvensiyalara qoşulub, onları ratifikasiya edib, amma bu ölkədə fəaliyyət göstərən beynəlxalq təşkilatlar Ermənistan hökumətindən hesabat tələb etmək əvəzinə, susqunluq nümayiş etdirirlər. Artıq bu cür təşkilatlar da “Amnesty İnternational” kimi həqiqətləri deməli, hesabatlarına daxil etməlidirlər.

**Zamin Məmmədov,**
***“İki sahil”***